# ERMƏNİLƏRİN AYRILA BİLMƏDİKLƏRİ KƏLBƏCƏR UNİTAZLARI

Felyeton



**Sentyabrın 27-dən sonra ən xoş və sevimli məşğuliyyətimiz mavi ekranın qarşısında oturaraq müharibəni - Milli Ordumuzun Ermənistan ordusuna toytutma mərasimini izləməkdir!**

**Dünyanın işinə bax: öz evində otura-otura əsl müharibənin gedişinə baxasan!**

**Lap kinodakı kimi!**

Həm də bu "əsl kino"ların qəhrəmanları Azərbaycan Ordusu, türk "Bayraqdarları", İsrail dronları ola!

Elə ki, erməni tankının, mərmi dolu yük maşınının, yaxud səngərdə komalanmış düşmənlərin ortasına dəqiq zərbə ilə bir mərmi dəyir, adama xüsusi ləzzət verir!

Sanki "Qarabağ"ın hansısa hücumçusu rəqib qapısına "doqquzluq"dan bir qol vurur!

Əlini-əlinə vurub "əhsən" deyirsən!

Azərbaycan Ordusunun apardığı yeni müharibə nümunəsinə hazırda bütün dünya heyran qalaraq "afərin" söyləyir.

❖ ❖ ❖

Noyabr ayının 10-dan isə tam fərqli mənzərəyə baxırıq. Yeddi şərtini hara neylədiyi bilinməyən Paşinyan hərbi "kapitulyasiya aktı"nı imzaladıqdan sonra ermənilər 27 ildir işğalda saxladıqları torpaqlardan çıxarılmağa başlayıblar!

Həm də müzəffər Ali Baş Komandan İlham Əliyevin tələb etdiyi və nail olduğu qrafik əsasında!

Azərbaycan torpaqlarına gülə-gülə gələn ermənilər indi ordan ağlaya-ağlaya gedirlər!

Amma bu məqamda da əsl erməniliklərini göstərirlər.

Biz ev-eşiyimizi, mal-mülkümüzü olduğu kimi qoyub gəlmişik!

Ermənilər isə bizə məxsus evlərdə 27 il yaşayıb şellənd ikdən sonra indi qovulanda oğru xislətlərinə sadiq hərəkətlər edirlər.

Hətta evlərinin üstünün dəmirini, pəncərələrin çərçivəsini belə çıxarıb aparırlar!

Sonra da boş evlərə, meşələrə od vurub cəhənnəm olurlar!

Sanki ürəklərinin yanğısını, məğlubiyyətlərinin acısını bununla soyutmaq istəyirlər!

Amma onlara tutduğumuz toy, vurduğumuz zərbə nə unudulandır, nə də sağalan!!!

Bütün dünya da məşhur telekanalların hazırladıqları reportajlara baxıb bu murdarlıqları görür.

Bizim üçün adi, dünya üçün maraqlı olan bir mənzərə...

❖ ❖ ❖

Kəlbəcərdə yaşadığı özgə evindən Yerevana qayıdan erməni ailəsi maşına son dərəcə "hörmət və ehtiyatla" bir əşya da yükləyir:

Adi unitaz!

Hər bir kəlbəcərlinin evində olan məişət əşyası.

Dünyanın işinə bax, ey!

Sən demə, "dünyanın ən qədim milləti", "ən qədim mədəniyyətə malik xalq"

Kəlbəcərə gələnə qədər unitaz görməyibmiş!!!

Hiss olunur ki, ilk dəfə bu "möcüzəli əşyaya" kəlbəcərlilərin evlərində rast gəliblər...

Yəqin ki, hələ bir neçə ay nə olduğunu başa düşməmiş, içərisində əllərini, üzlərini də yuyurmuşlar.

Sonralar görünür Avropadan gələn turistlər bu ağ rəngli əşyanın təyinatını onlara izah ediblər.

Xoşlarına gəlib, möhkəm seviblər!

Hətta özgə torpaqlarından birdəfəlik çıxıb gedəndə sevginin gücündən ayrıla bilməyiblər.

Evlərinin ən qiymətli, ən əziz əşyalarından biri kimi özləri ilə Yerevana aparmağı qət ediblər.

❖ ❖ ❖

Gördünüzmü Mkrtıç onu necə bağrına basmış vəziyyətdə (heç özlərinin haxçıx və harsınlarını elə bərk-bərk qucaqlamırlar) aparıb yük maşınına qoyur. Maşındakı Arakel də (erməninin adı ya Mkrtıç olar, ya Arakel, ya da Aşot) eyni ehtiyat və həssaslıqla həmin unitazı alıb yumşaq yerdə yerləşdirir ki, qırılıb eləməsin.

Deyirlər "evro nyus"un bu riqqət doğuran köç mərasimini çəkib dünyaya göstərməsi sayəsində Yerevandakı ermənilər də bu qəribə əşyanı görüblər, hətta ona yaxından baxmaq, toxunmaq üçün Mkrtıçı təntənə ilə qarşılamağa da çıxıblar.

Təəssüf ki, köç məsələsindən dilxor olan Mkrtıç heç bir erməniyə unitaza əllə toxunmağa icazə verməyib (Kim bilir, paxıllıqdan sındıracaqlarından qorxub, ya da əllərinin ləkəsinin qalacağından ehtiyat edib). Yəqin bu barədə erməni mətbuatı əlavə açıqlama verəcək.

❖ ❖ ❖

Mkrtıç bütün ermənilərin valeh olduğu həmin əşyanın adını həlelik yerevanlılar üçün açıqlamayıb. Görünür Arakellə birlikdə onun istehsalını qaydaya salmaq və müəlliflik hüququ almaq istəyirlər (ermənilər bizdən o qədər mahnı, musiqi, hətta xörəklər oğurlayıb öz adlarına çıxıblar ki, qoy bu da olsun onlardan biri).

Amma bir neçə erməni elə həmin tanışolma mərasimində bəyan ediblər ki, əgər bu adsız əşyadan əldə edə bilsələr və xoşlarına gəlsə, ona atalarının adını qoyacaqlar!

Noolar! Qoy olsun!

Dünya gör-götür dünyasıdır!

**Bəxtiyar SADIQOV**

Azərbaycan.- 2020.-17 noyabr.- S.6.